Azadlıq Radiosu

KORRUPSİOMETR

# Sahibkarlardan rüşvət almaqda ittiham olunan vəzifəli şəxslər həbs edilib

2 saat öncə




Dövlət Vergi Xidməti

Dövlət Vergi Xidmətinin (DVX) iki vəzifəli şəxsi saxlanılıb. Onların vergi yoxlamasının keçirilməməsi müqabilində sahibkarlardan rüşvət almaqda ittiham olunduğu bildirilir. Bu barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti birgə məlumat yayıb.

Sözügedən şəxslər DVX-nin Bakı şəhəri Operativ Vergi Nəzarəti və Uçotun Təşkili Baş İdarəsinin Sahə Təhkimçiliyi İdarəsinin rəis müavini **Rüstəm Mirzəyev** və həmin idarənin 4-cü şöbəsinin rəisi **Kənan Məmmədov**dur.

Məlumatda deyilir ki, onların Bakıdakı ticarət mərkəzlərindən birində çoxsaylı sahibkarlardan rüşvət qismində 200 min manat almalarına əsaslı şübhələr müəyyən

edilib. Bu vəsaitin vergi yoxlamasının keçirilməməsi, cərimə tətbiq edilməməsi və digər bu kimi məqsədlərlə alındığı iddia olunur.

Mirzəyev və Məmmədova Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib və barələrində həbs-qətimkan tədbiri seçilib. Adıçəkilən şəxslərin ittihamlara münasibəti hələlik bəlli deyil.

Baş Prokurorluq digər dövlət qurumları ilə birgə vəzifəli şəxslərin qanunsuz əməllərinin qarşısının alınması istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlərin davam etdirildiyini bildirir.

## Xatırlatma

Azərbaycanda bir çox müxalifət partiyası Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətindən razı deyil. Müxalifətin fikrincə, idarə sistemli və köklü korrupsiya hallarının üzərinə gedə bilmir, nəticədə ya xırda rütbəli, ya da gözdən düşmüş məmurlar məsuliyyətə cəlb olunurlar.

Eyni zamanda, aparılan istintaqların şəffaf olmaması və verilən şikayətlərin obyektiv araşdırılmaması ilə bağlı da iddialar səslənməkdədir.

Üstəlik, korrupsiyaya yol verdiyi bildirilən bəzi məmurların "maddi ziyanın ödənilməsi" müqabilində uzunmüddətli həbs cəzalarından kənarda qalması cəmiyyətdə əlavə mübahisələrə səbəb olur.

**Korrupsiyadan danışana təzyiq qadağ...**

Mənbə: AzadlıqRadiosu




0:00 2:58

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur